Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2022, **s. 118-122**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2022, **с. 118-122**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2022, **pp. 118-122**

UOT 376.075

N.A.Mehdiyeva
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: mehdiyeva.nazpari@gmail.com

MƏKTƏBƏQƏDƏR YAŞLI EKSPRESSİV ALALİYALI UŞAQLARDA İNTONASİYANIN İNKİŞAF ETDİRİLMƏSI ÜZRƏ TƏŞKİL EDİLƏN LOQOPEDİK İŞİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *ekspressiv alaliya, intonasiyanın inkişafı, loqopedik iş, loqopedik işin mərhələləri*

Məqalədə məktəbəqədər yaşlı ekspressiv alaliyalı uşaqların korreksiyasının mühüm əhəmiyyət kəsb edən nitq metodları kompleksində intonasiyanın inkişafının vacibliyi əsaslandırılır. Tədqiqat ekspressiv alaliyalı məktəbəqədər yaşlı uşaqlarla iş prosesində intonasiya strukturlarının öyrənilməsinə həsr olunmuşdur. Məqalədə belə uşaqlarda intonasiyanın inkişafı üçün lazım olan loqopedik müalicənin mərhələləri təqdim olunur.

Н.А.Мехтиева

ЛОГОПЕДИЧЕСКАЯ РАБОТА ПО РАЗВИТИЮ ИНТОНАЦИИ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА С ЭКСПРЕССИВНОЙ АЛАЛИЕЙ

Ключевые слова: *экспрессивная алалия, развитие интонации, логопедическая работа, этапы логопедической работы.*

В данной статье обосновывается важность развития интонации в комплексе речевых методов коррекция детей старшего дошкольного возраста, имеющих экспрессивную алалию. Исследование посвящено изучению интонационных конструкций в работе с детьми старшего дошкольного возраста, имеющими экспрессивную алалию. В статье представлены этапы логопедического лечения, необходимые для развития интонации у таких детей.

N.A.Mehdiyeva

SPEECH THERAPY WORK ON THE DEVELOPMENT OF INTONATION IN PRESCHOOL CHILDREN WITH EXPRESSIVE ALALIA

Keywords: *expressive alalia, intonation development, speech therapy work, stages of speech therapy work.*

This article substantiates the importance of developing intonation in the complex of speech treatment methods used with children of senior pre-school age who have expressive alalia. The study is devoted to the study of intonational structures in work with children of senior preschool age with expressive alalia. The article introduces the stages of speech therapy treatment required for the development of intonation in such children.

Məktəbəqədər yaşlı uşaqların ən çox üzləşdiyi problemlərdən biri də nitqlə bağlı olan pozulmalardır. Nitq qüsurunun vaxtında və düzgün diaqnostikası növbəti mərhələlərdə korreksiya işinin uğurlu aparılması üçün əlverişli şərait yaradır. İlk olaraq diaqnostika zamanı nitq qüsurunun xarakteri, ağırlıq səviyyəsi və nitqin hansı komponentinin pozulduğu müəyyən olunur. Diaqnostikadan öncə valideynlə söhbət edilir və müəyyən anamnez toplanılır. Bildiyimiz kimi nitq anadangəlmə olaraq mövcud olmur.

Ekspressiv alaliya tibbi-psixoloji-pedaqoji problemdir. Uşaqların müayinəsi zamanı onların ünsiyyət ehtiyacına, bilik səviyyəsinə, kiçik və böyük motorikanın inkişafına, söz ehtiyatına, artikulyasiyanın vəziyyətinə, oyunlara və oyuncaqlara olan marağına, problemi düzəltmək istəyinə fikir verilməlidir. Ekspressiv alaliyalı uşaqların nitqi gec inkişaf edir. Buna görə də, bu uşaqların nitqini inkişaf etdirmək üçün onları danışan uşaqların əhatəsinə daxil etmək məsləhət olunur. Ekspressiv alaliya zamanı uşaqların nitqi üzrə 4 – 5 yaşlarından korreksiya işinə başlamaq lazımdır. Bu kateqoriyadan olan uşaqlara yaradılan əlverişli şərait və düzgün korreksiya işi mövcud olan qüsurun aradan qaldırılmasına qismən yardım edir. Əlverişli şərait dedikdə aşağıda qeyd olunanlar nəzərdə tutulur:

- Loqopedin uşaqla düzgün təşkil etdiyi emosional əlaqə;
- Uşaqda mövcud olan yorğunluğun aradan qaldırılması üçün tədbirlərin görülməsi.

Məktəbəqədər yaşlı ekspressiv alaliyalı uşaqlar üçün təşkil olunan loqopedik işin əsas məqsədləri aşağıdakılardır:

- nitqi dinləmək, məzmununu anlamaq bacarığının formalaşması;
- hər hansı səs birləşmələrinin tələffüzü zamanı təqlid fəaliyyətinin inkişafı;
- lüğət ehtiyatının zənginləşdirilməsi, sözlərin leksik və qrammatik

mənasının aydınlaşdırılması;

- ünsiyyət prosesində nitq vasitələrindən istifadə etmək bacarığının inkişafı.

Loqopedik iş psixonevroloq, nevropatoloq, loqoped, psixiatr tərəfindən aparılan dərman və psixoterapevtik müalicə fonunda kompleks şəkildə aparılmalıdır. Loqopedik işin əsasını nitq fəaliyyətinin mexanizmlərinin yaradılması təşkil edir: motivin, kommunikativ istəyin, daxili nitq proqramının formalaşdırılması, leksik və qrammatik vasitələrin seçilməsi. Loqopedik iş prosesində həm nitqin xüsusiyyətləri, həm də uşağın şəxsiyyət keyfiyyətləri, maraqları, qabiliyyətləri nəzərə alınmalıdır. Həmçinin incə motor bacarıqların inkişafına diqqət yerilir: rəsm çəkmək, rəngləmək, ştrix çəkmək, düyünləri bağlamaq və s. Müəyyən edilmişdir ki, əgər uşaqlar əl barmaqlarının hərəkətlərinin inkişafında geri qalırlarsa, deməli nitqin inkişafında da geri qalırlar. Əl hərəkətləri məşq etdirildikcə nitqin vəziyyəti də yaxşılaşır.

Ekspressiv alaliya zamanı intonasiyanın inkişaf etdirilməsi üzrə təşkil olunan loqopedik işin əsas mərhələləri və istiqamətləri aşağıdakılardır:

1. Hazırlıq – intonasiya komponentlərinin qavranılması və bərpası mərhələsi. Bu zaman loqopedik iş aşağıda qeyd edilən istiqamətlər üzrə aparılır: səsin yüksəkliyini və nitqin melodiyasının inkişafı, səsin gücü və intensivliyi, səs tonunun (tembrinin), ritmin, tempin və məntiqi vurğunun emosional xarakteri.

2. Əsas – sözün mənasını intonasiya vasitəsi ilə çatdırmaq üçün intonasiya komponentlərinin inteqrasiyası mərhələsi. Loqopedik işin əsas istiqamətləri bunlardır: nəqli, sual, nida intonasiyası ilə tanışlıq; nitq ünsiyyətinin məqsədi və vəziyyəti nəzərə alınmaqla xüsusi yaradılmış kommunikativ situasiyalarda intonasiya strukturlarının qavranılması və fərqləndirilməsinin inkişafı.

3. Yekun – böyüklər və həmyaşıdları ilə ünsiyyət prosesində müxtəlif intonasiya strukturlarının gücləndirilməsi mərhələsi. İntonasiyanın inkişafı üzrə loqopedik işin üçüncü mərhələsi bilavasitə böyüklərlə və həmyaşıdları ilə ünsiyyət prosesində intonasiya strukturlarının müxtəlif növlərinin fərqləndirilməsinə və möhkəmləndirilməsinə yönəlmişdir.

Ekspressiv alaliyalı məktəbəqədər yaşlı uşaqlarda intonasiyanın inkişafı üzrə təşkil olunan loqopedik işin ikinci mərhələsində istifadə olunan əsas üsulları nəzərdən keçirək. Bu zaman intonasiya quruluşlarının mənimsənilməsi ontogenezdə necə əmələ gəlirsə eyni ardıcıllıqla həyata keçirilir. Əvvəlcə uşaqları ən sadə nəqli, sonra sual, daha sonra isə nida intonasiyaları ilə tanış edilir, növbəti mərhələlərdə isə bu intonasiyaları qavramaq və nitqində istifadə etmək öyrədilir. İntonasiya ilə tanış olarkən melodiyanın səsləndiyi zaman onun istiqamətinə və xarakterinə, həmçinin yazılı formada göstərilməsinə diqqət yetirilir.

Nəqli cümlələrdə intonasiya ilə tanışlıq zamanı istifadə olunan üsuallar:

- cümlənin və ya sözün sonunda səsin aşağı salınması nəqli cümlənin melodiyasının hərəkətini əks etdirir;

- vizual möhkəmləndirmə - nəqli cümlənin durğu işarəsi ilə tanışlıq və

simvol kartının nümayişi – nöqtənin nümayişi; yazıda nəqli cümlənin melodiyasının hərəkətinin qrafik təsviri ilə tanışlıq – aşağı enən ox;

- nəqli cümlənin melodiyasını yadda saxlamaq üçün assosiativ möhkəmləndirmə;

- cümlənin sonunda səsin aşağı enməsini izah etmək üçün əlin aşağıya doğru hərəkəti;

Sual intonasiyası ilə tanış olarkən aşağıdakı üsullardan istifadə olunur:

- sual cümləsinin sonunda səsin yüksəldilməsi sual cümləsinin melodiyasının hərəkətini əks etdirir;

- vizual möhkəmləndirmə - sual cümləsinin durğu işarəsi ilə tanışlıq və simvol kartının nümayişi – sual işarəsi; yazıda sual cümləsinin melodiyasının hərəkətinin qrafik təsviri ilə tanışlıq – yuxarı qalxan ox;

- assosiativ möhkəmləndirmə - sual cümləsinin melodiyasını yadda saxlamaq üçün istifadə olunur;

- sual cümləsində səsin yüksəlməsini göstərən əlin yuxarı hərəkəti;

Nida intonasiyası ilə tanış olarkən aşağıdakı üsullardan istifadə olunur:

- nida cümləsinin melodiyasının hərəkətini əks etdirmək üçün səs tonunun kəskin artması və sonra onun bir qədər azalması;

- vizual möhkəmləndirmə - nida cümləsinin durğu işarəsi ilə tanışlıq və simvol kartının nümayişi – nida işarəsi; yazıda nida cümləsinin hərəkətinin qrafik təsviri ilə tanışlıq – yuxarı qalxan, daha sonra kiçik enişlə üfüqi hərəkət edən ox;

- assosiativ möhkəmləndirmə - nida cümləsinin melodiyasının hərəkətinin xarakterini xatırlamaq üçün istifadə olunur;

- səsin kəskin artmasını göstərən əlin yuxarı və səsin bir qədər aşağı düşməsini əks etdirən əlin üfüqi hərəkəti.

Uşaqları bu və ya digər intonasiya ilə tanış etdikdən sonra cümlə və mətn əsasında bir sıra xüsusiyyətlərinə görə digərlərindən fərqləndirmək bacarığı öyrədilir. Bu zaman məlumat xarakterli cümlələrə görə nöqtədən, cavab tələb edən sorğu – sual xarakterli cümlələrdə sual işarəsindən, həyəcan, təəccüb bildirən cümlələrdə isə nida işarələrindən istifadə olunduğu; cümlə nəqli, sual, nida intonasiyası ilə tələffüz olunarsa müəyyən hərəkətlərin yerinə yetirilməsi, məsələn əl çalmaq və s. öyrədilir.

İntonasiyanın inkişafında musiqi dərsləri böyük rol oynayır. Bu dərslərdə uşaqlar musiqi sədaları altında hərəkət etməyi, həmçinin musiqi sədaları altında hərəkəti və nitqi birləşdirməyi öyrənirlər. Bu cür məşğələlər musiqinin ritmini, tempini, emosional xarakterinin qavranılmasını inkişaf etdirir. Öyrədilmiş intonasiya dialoqların, nağılların, şeirlərin köməyi ilə möhkəmləndirilir. Çox böyük mətnlər uşaqların nitq xüsusiyyətləri nəzərə alınaraq uyğunlaşdırılmalıdır.

Beləliklə, ekspressiv alaliyalı məktəbəqədər yaşlı uşaqlar üçün hazırlanmış bu loqopedik iş istiqamətləri onların nitqinin ifadəliliyini yaxşılaşdırır, nitq imkanlarına müsbət təsir göstərir, onlara cümlənin emosional mənasını dərk etməyi

və ünsiyyət prosesində intonasiyanın köməyi ilə qarşı tərəfə fikrini çatdırmağı öyrədir.

Məqalənin aktuallığı. Məktəbəqədər yaş dövründə olan ekspressiv alaliyalı uşaqlarda intonasiyanın vəziyyətinin və onun inkişafı üçün təşkil olunan loqopedik iş üsullarının təsvir olunması məqalənin aktuallığını müəyyən edir.

Məqalənin elmi yeniliyi. Ekspressiv alaliyalı məktəbəqədər uşaqlarda intonasiyanın inkişafının, onun strukturlarının mənimsənilməsi və onlar üzrə təşkil olunan loqopedik iş üsullarının həyata keçirilməsi, sistemləşdirilməsi və müəyyən edilməsi.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Bu sahədə tədqiqat aparan bakalavr, magistr və gənc tədqiqatçılar problemin öyrənilməsi və aradan qaldırılması istiqamətində müəyyən informasiyalara yiyələnərək öz tədqiqatında praktik cəhətdən istifadə edə bilər.

ƏDƏBİYYAT

1. Лопатина Л.В., Позднякова Л.А. Логопедическая работа по развитию интонационной выразительности речи у дошкольников с речевыми нарушениями. – 2010.
2. Светозарова Н.Д. Интонационная система русского языка. – 1982.
3. Ковшиков В.А. Экспрессивная алалия и методы ее преодоления. – 2006.
4. https://studfile.net/preview/7680657/page:7/

Məqalənin redaksiyaya daxil olma tarixi: 22.01.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 28.01.2022
Məqalənin çapa qəbul olunma tarixi: 15.02.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.